**Vətən müharibəsində iştirak edib Zəfər dastanını yaradanlardan biri də İctimai Televiziyanın (İTV) bölgə müxbiri, həmkarımız Rəşad Rəşidovdur. 1988-ci ildə Göyçay rayonunda doğulan R.Rəşidov üç qız atasıdır. Ailəsini, üç fidan balasını Allaha əmanət edib Vətənin müdafiəsinə gedənlər cərgəsinə qoşulan Rəşad Rəşidov "Bakı-Xəbər"in qazi jurnalistlərlə bağlı layihəsinin növbəti qonağıdır.**



# Jurnalist Rəşad Rəşidov Qarabağ uğrunda qazilik yolunu belə getdi...

*"Qızlarım məni qucaqlayanda bir anlıq düşündüm ki, bu hissləri bütün uşaqlar yaşamaq istəyərdi"*

**- Ölkədə qismən səfərbərlik elan edilməsi xəbərini necə qarşıladınız?**

- Ölkəmizdə qismən səfərbərlik elan ediləndə mən artıq ordu sıralarında idim. Belə ki, Hərbi vəzifəlilərin hərbi toplantısına çağırıldığım üçün sentyabrın 21-i səhər saatlarında Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət Xidmətinin Göyçay bölməsinə getdim. Burada müvafiq sənədləşmədən sonra həmin gün Müdafiə Nazirliyinin Goranboy rayonunda yerləşən N saylı hərbi hissəsinə göndərildik. Sentyabrın 21-də də müqəddəs hərbi formanı çox böyük qürur hissi ilə əynimizə geymişik. Təbii ki, həmin tarixdə müharibədən söhbət getmirdi, gedə də bilməzdi. Amma sentyabrın 21-dən cəbhənin müxtəlif istiqamətlərindən düşmənin təxribatı aydın görünürdü. Sentyabrın 22-də hərbi toplantılara qatılan hərbi vəzifəlilərlə bir yerdə poliqonlarda müxtəlif silahlardan hədəfə atəş açmağa başlamışıq. Bizə verilən döyüş tapşırığını yerinə yetirmişik. Eyni zamanda müasir silahlarla tanış olmuşuq və bu proses sentyabrın 26-na qədər davam edib. Sentyabrın 26-da artıq müxtəlif vəzifələrə təyin olunmaqla bölmələrin tərkibinə verilmişik. Zatən hər kəsin bir vəzifəsi vardı. Hər kəsi öz vəzifəsinə, rütbəsinə görə təyin ediblər.

**- Sizin vəzifəniz nə idi?**

- Mən döyüş maşın komandiri təyin edilmişdim. Dediyim bu proseslər sentyabrın 26-na qədər davam etdi. Ondan sonra, bildiyiniz kimi, sentyabrın 27-də səhər saatlarında düşmən cəbhənin müxtəlif istiqamətlərində təxribatlara əl atdı və Azərbaycan Ordusu da mülki əhalinin təhlükəsizliyini təmin etmək və eləcə də düşmənin təxribatlarının qarşısını almaq məqsədilə əkshücuma başladı. Bu əkshücum sonradan "Dəmir yumruq" əməliyyatı ilə Vətən müharibəsinə çevrildi.

**- Əlbəttə, jurnalistin əsas işi yazmaq, informasiya yaymaqdır. Bəs bir jurnalistin əlində silah döyüşməsi nə deməkdir? Bu necə yaşantıdır?**

- Şübhəsiz, jurnalistin əsas işi hər zaman informasiya yaymaqdır. Ancaq bəzən ehtiyac yarandıqda biz qələmimizi yerə qoyub silaha sarılmalıydıq. Nə xoş bizim halımıza ki, bu bizə qismət oldu. Sualınıza bir mövzu ətrafında cavab verməh istərdim. Müharibə dövründə zabitlərimiz biləndə ki, mən mülki həyatda jurnalistika fəaliyyəti ilə məşğul olmuşam, məndən soruşurdular ki, Rəşidov, sən niyə qələminlə deyil, silahla döyüşməyə gəldin, mülkidə informasiya müharibəsində öz qələminlə vuruşa bilərdin. Cavab verirdim ki, Azərbaycan jurnalistləri 30 il ərzində kifayət qədər öz qələmləri ilə vuruşublar, artıq silahla döyüşməyin zamanıdır. Bu mənim ən böyük arzum, ən böyük istəyim olub. Çünki mən hər dəfə bir bölgəyə, bir rayona, bir kəndə şəhid gələndə bir kənara çəkilib Allaha yalvarırdım, dua edirdim ki, ay Allah, kaş müharibə başlaya və mən də müharibədə iştirak edəm. Allah sanki dualarımı eşitdi. Deyirdim ki, şəhidlərin qisasının alınmasında kaş mənim də rolum olaydı. Mənim içimdə olan o qisas hissi daha da alovlanırdı, daha da şiddətlənirdi. Özümü çox xoşbəxt hesab edirəm ki, Vətən müharibəsində mən də iştirak etdim, ordu sıralarında oldum. Az da olsa, mənim də xidmətlərim oldu, bununla qürur duyuram, fəxt edirəm ki, mən müharibə dövründə hərbiçilərimizlə bərabər oldum. Hesab edirəm ki, 44 günlük Vətən müharibəsində əynində hərbi libası olan hər kəsin, fərq etməz, topçu, tankçı, rabitəçi, yemək bişirən, çay hazırlayan, paltar tikən, paltar daşıyan olsun, hamının əməyi, rolu, əziyyəti, işi-peşəsi və vəzifəsi olub. Həm də bu qələbə zatən ordu və xalq birliyinin təntənəsinə bağlıdır. Müharibədə olduğum müddətdə həftədə azı iki-üç dəfə yoldaşımla İnsan Resursları Departamentinin xanım əməkdaşları danışırdılar, hər hansı bir çətinliyin, nəyəsə ehtiyacının olub-olmaması ilə maraqlanırdılar. Bunu da bildirim ki, ordu sıralarında olduğum müddətdə də bizim İctimai Televiziyanın əməkdaşları, xüsusilə də İnsan Resursları Departamenti, həmçinin də İTV-nin rəbhəri Balakişi Qasımov televiziyamızın müharibədə olan beş əməkdaşının ailəsi ilə əlaqə saxlayıb, maddi və mənəvi dəstək olub. Bu məsələləri niyə vurğulayıram? Çünki bu, döyüşdə olan bizlərə motivasiya, ruh verirdi, bizi ailəmizdən nigaran qalmağa qoymurdu. Düşünürdük ki, biz burdayıq, amma ailəmiz diqqətdən kənarda deyil.

*"İlk növbədə bizi qələbəyə inandıran Ali Baş Komandan idi"*

**- Müharibə ovqatından, orada yaşadıqlarınızın təsirindən xilas olmaq asan oldu, yoxsa hələ də o anları içində yaşadırsan?**

- Mənim vəzifəm döyüş maşın komandirliyi idi. Mən o zaman bu vəzifəni ica edəcəkdim ki, məndən əvvəlki döyüş komandiri yaralanaydı, yaxud şəhid olaydı. Ona qədər ehtiyatda idim. Bu müddətdə bizim işimiz hərbi obyektlərin mühafizəsi, eyni zamanda təminatla bağlı olub. Belə deyək, işimiz ərzaqların yığılması, onların və digər təminatların, silah-sursatın, eyni zamanda digər zəruri avadanlıqları hərbçilərimizə çatdırmaqdan ibarət olub. Aktiv döyüşlərdə iştirak etməmişəm. Bunu deyib o hərbçilərimizin, o şəhidlərimizin haqqına girə bilmərəm. Aktiv döyüşlərdə iştirak etməsəm də, amma sentyabrın 21-dən dekabrın 6-na kimi üzərimə düşən əmr və tapşırıqların öhdəsindən gəlmişəm. Bundan qürur hissi keçirirəm, fəxr edirəm ki, bu müddət ərzində mən də ordu sıralarında olmuşam. Müharibə ovqatından və onun təsirindən xilas olmaq o qədər də asan olmadı. Həqiqətən bu proses çox çətin idi. Günü bu gün də bu məsələdə əziyyət çəkirəm.

**- Elə döyüşlər, elə hadisələr varmı ki, indi də onu yaddan çıxara bilmirsiz?**

- O hadisələr unudulası, yaddan çıxası hadisələr deyil. İstəsək belə, unutmaq mümkünsüzdür. Mən əsasən də itkilərimizlə bağlı məsələləri deyirəm. Bunun qürurverici tərəfləri də var ki, onu da hər zaman xatırlayırsan, həm xalqımızla, həm ordumuzla, hərbçilərimizlə, igidlərimizlə bağlı fəxr hissi keçirirsən. Bu o qədər gözəl duyğudur ki, sözlə ifadə etməyə çətinlik çəkirsən. Amma elə şeylər var ki, onun təsirindən çıxmaq mümkünsüzdür. Xatırlayıram ki, dekabrın 6-da ordu sıralarından ehtiyata buraxıldım. Dekabrın 2-də Ali Baş Komandanın müvafiq sərəncamı oldu ki, burada ilk növbədə 4 kateqoriyadan olan hərbçilərin ehtiyata buraxıldığı vurğulanırdı. Bir hadisəni heç vaxt unuda bilmirəm, onu hər gün yaşayıram. Mən də üç azyaşlı qız övladı atası olduğum üçün dekabrın 6-da buraxıldım. Evə gələndə məni ailə üzvlərim, qohumlar, tanışlar, qonşular qarşıladı. Qızlarım məni qucaqlayanda bir anlıq gözümün önünə gəldi ki, bu hissləri bütün uşaqlar yaşamaq istəyərdi. Bütün övladlar istəyərdi ki, atalarını müharibədən sonra qucaqlasınlar, onları sağ-salamat görsünlər. O hissi mən unuda, hələ də onun təsirindən çıxa bilmirəm. Şəhdilərimizin övladlarını düşünürəm. Doğrudur, onların ataları elə bir məqamdadır ki, o məkan nə ilə müqayisə edilə bilməz. Düşünürəm ki, onlar atasızdırlar, amma mənim övladlarımın atası var... Hərdən özlüyümdə fikirləşirəm ki, niyə mən sağ qaldım. Hətta bəzən özümü günahkar bilirəm, deyirəm ki, niyə onlar şəhidlik məqamına ucaldı, mən yox...

**- Azad edilən rayonlarımızdan hansında olmusunuz?**

- Zəngilanda, Cəbrayılda, Füzulidə, Şuşada, Ağdamda olmuşam. İnişallah, digər rayonlara da getmək arzusundayam. Həmkarlarımız sağ olsun, bildirirlər ki, biz sizə borcluyuq. Bəzən bunu başqa şəxslər də deyirlər. Deyirəm ki, yox qardaş, heç kim heç kimə borclu deyil. Hər kəsin üzərinə düşən iş, vəzifə vardı, çalışdıq ki, üzərimizə düşən işin öhdəsindən layiqincə gələk.

**- Qələbəyə inanırdınızmı?**

- Zəfər qazanacağımıza həqiqətən inanırdım. Təkcə mən yox, inandırım sizi, ordu sıralarında olan zabit, gizir, çavuş, əsgər hər biri qələbəyə inanırdı. Hər kəs bilirdi ki, artıq qisas günü gəlib çatıb. Eyni zamanda bizi qələbəyə inandıran digər amillər vardı. İlk növbədə bizi qələbəyə inandıran Ali Baş Komandan idi. İkincisi güclü ordu, üçüncüsü müasir silahların olması, dördüncüsü mənəvi-psixoloji hazırlığın yetərincə olması, xalqın ordunun arxasında dayanması idi. Ordu-xalq birliyi əminlik yaradırdı ki, biz qələbə çalacağıq.

**- Ən çox nəyə təəssüflənirsiniz?**

- Təbii ki, müharibə itkisiz olmur, eləcə də qələbə itkisiz əldə olunmur. Ən çox təəssüf etdiyim şey şəhidlərimizin olmasıdır. Bizim hərbi hissə ilk şəhidləri sentyabrın 30-da verdi. Eyni zamanda ətrafımda dostlarımdan, tanışlarımdan, həmkəndlilərimdən də şəhid olan olanlar oldu. Ən çox təəssüfləndiyim məsələ budur. Təəssüf edirəm ki, onların övladları cismən atasız qaldı. Mənəvi cəhətdən şəhid ailələri tək deyil, heç zaman da tək qalmayacaqlar, amma cismən o övladlar atasız qaldı. Digər təəssüfləndiyim məqam ondan ibarətdir ki, sentyabrın 21-dən ordu sıralarına qatılsam da, aktiv döyüş əməliyyatlarında iştirak edə bilmədim. Təbii ki, bunun da məndən asılı olmayan səbəbləri olub. Məni hara təyin ediblərsə orda olmuşam, mənə hansı tapşırıqları veriblərsə onu icra etmişəm. O səbəbdən aktiv döyüş əməliyyatlarında iştirak edə bilməmişəm. Başqa bir təəssüfləndiyim məqam odur ki, sentyabrın 21-dən dekabrın 6-na qədər ordu sıralarında olmağıma, hərbi obyektlərin mühafizəsində yaxından işrirakıma, təminatla məşğul olmağımıza baxmayaraq, mən və mənimlə bərabər bir neçə silahdaşım veteran statusu ala bilməmişik. Amma bu heç nəyi dəyişmir. Şəxsən mənə görə ad, status Vətən sevgisindən önəmli deyil. Yenə də müharibə başlayarsa, hər an qələmimi silaha çevirməyə, xalqımın, dövlətimin, Vətənimin müdafiəsində dayanmağa hazıram. Fəxr edirəm, qürur duyuram ki, 2016-cı ilin şanlı Aprel döyüşlərində jurnalist kimi iştirak etmişəm, döyüşlərin getdiyi ərazilərə ezam olunmuşam, ordan reportajlar hazırlamışam, düşmənin törətdiyi təxribatları ifşa edən, şanlı Azərbaycan ordusunun qəhrəmanlığını ifadə əks etdirən süjetlər hazırlamışam...

*İradə SARIYEVA*